

# İyirmi beş il bundan əvvəl xalqımız ən düzgün seçimini etdi

***O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

❐ ***Elə tarixi hadisələr var ki, onlar haqqında söz açmaq istəyərkən, istər-istəməz siyasətçi, diplomat, politoloq və ya tarixçilərin məşhur ifadələri yada düşür. Ulu öndər Heydər Əliyevin ölkəmizdə ilk dəfə prezident seçildiyi 3 oktyabr 1993-cü il tarixi isə xalqımızın həyatında elə bir möhtəşəm siyasi dəyişikliklərin, inkişaf və tərəqqi dönəminin başlanğıcı oldu.***

Şəxsən mən 1993-cü ilin 3 oktyabrı haqqında danışarkən mütləq Xalq şairi Vaqif Səmədoğlunun "Günün bəxti" şeirini xatırlayıram. Şairin 9 May – Qələbə Günü münasibətilə yazdığı həmin şeirdə belə bir fikir var: "Günün bəxtinə bir bax! Düz iyirmi əsr ilin, ayın adi günlərindən biri olasan, sonra gəlib tarixdə 9 May günü kimi qalasan". 1993-cü ilin 3 oktyabrı da məhz o şəkildə bəxtli, şanslı günlərdən biri idi. Amma insafən, həmin gün bəxti ayaq üstdə olan, daha çox şanslı görünən təkcə həmin tarix deyil, həm də Azərbaycan xalqı idi. Çünki bu xalq müstəqilliyin ilk illərində nələr çəkmişdisə, bir özü bilirdi. Həmin məhrumiyyət və məşəqqətlərdən qurtarmaq üçün yolumuz 1993-cü il iyunun 15-də açılmışdısa, həmin yolu sonadək getmək imkanına məhz oktyabrın 3-də nail olduq.

Ulu öndərin ilk dəfə dövlət başçısı seçildiyi 3 oktyabr prezident seçkiləri barədə rəsmi-statistik məlumatlar belədir: "1993-cü ildə keçirilmiş prezident seçkiləri Azərbaycan Respublikasının Prezidenti postuna keçirilən 3-cü rəsmi seçkilər olmuşdur. Yeni Azərbaycan Partiyasının lideri Heydər Əliyev seçkilərdə iştirak edən 3 milyon 919 min 923 nəfər seçicinin səsini qazanaraq (98,84 faiz) böyük üstünlüklə qalib gəlmiş, Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ümumiyyətlə, 1993-cü ildə keçirilmiş prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi. Bu seçkilərdə Azərbaycan xalqı doğru seçim edərək, yüksək səs çoxluğu ilə öz böyük oğlunu, dahi siyasətçi Heydər Əliyevi Prezident seçmiş və həmin seçimlə də bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyulmuşdur. Bu seçkilərin nəticəsi Yeni Azərbaycan Partiyasının inkişafında yeni bir mərhələnin başlanğıcı olmaqla, partiyanın ölkəmizin siyasi sistemində özünün aparıcı mövqeyini təsdiq etmək, ən əsası isə müstəqil dövlət quruculuğu proseslərində yaxından iştirak etmək üçün qarşısında mühüm vəzifələr qoymuşdur".

Bu, rəsmi məlumat. İndi isə bəzi mülahizələrə diqqət yönəldək. Məsələn, deyə bilərik ki, Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın ulu öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi liderə ehtiyacı var.

Bəs xalqın ona olan inamının, etimadının təməlində nə dayanırdı? Ölkədə hamı yaxşı bilirdi ki, hələ 1969-1982-ci illərdə – Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan üçün gördüyü misilsiz işlər milli tariximizin unudulmaz həqiqətləridir. Bundan başqa, 1990-cı ildə 20 Yanvar faciəsinin ertəsi günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi, habelə əli qana batmış Mixail Qorbaçovun səhv siyasətini kəskin tənqid etməsi dahi liderə olan inamı daha da artırmışdı.

Azərbaycan xalqı da, onun lideri də çox yaxşı bilirdilər ki, vətəndaş müharibəsinin bir addımlığında olan, dövlət müstəqilliyini ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalan bir respublikada hakimiyyətə gəlmək çox böyük bir risk idi. Çünki ölkəmiz dövlət müstəqilliyini yenicə bərpa etmişdi, Azərbaycan Ermənistanla müharibə şəraitində idi. Bu risk doğuran faktorlar böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Yəni Azərbaycan rəhbəri həm ərazilərin əldən getməsinin qarşısını almalı, həm dövlətçiliyi qorumalı, həm də iqtisadi inkişafa nail olmalı idi ki, AXC – Müsavat iqtidarının siyasi idarəetməsi dövründə formalaşmış etirazları səngitmək mümkün olsun. Bütün bu şərtləri hamıdan yaxşı dəyərləndirən Heydər Əliyev həmin risklərdən çəkinmədi.

Nəticədə Azərbaycan və azərbaycanlılarla yanaşı, regionun bütün xalqları və dövlətləri qazandılar. Çünki bu gün əksər beynəlxalq tribunalardan səsləndirilir ki, Azərbaycan Respublikası bölgədə sabitliyin və təhlükəsizliyin qarantı olmaqla yanaşı, regional iqtisadi inkişafın da lokomotividir. Hamı etiraf edir ki, Ermənistan silahlı birləşmələri işğal edilmiş Azərbaycan torpaqlarından çıxarıldıqdan sonra bölgədə sürətli iqtisadi artım yaşanacaq. Təbii ki, bu da Heydər Əliyev siyasi dühasının məhsulu olan qüdrətli Azərbaycan dövlətinin qonşularla və beynəlxalq aləmlə əməkdaşlığa verdiyi önəm nəticəsində mümkün olacaq.

Bu il may ayının 10-da – ulu öndərin anadan olmasının 95 illiyi münasibətilə keçirilmiş təntənəli mərasimdə geniş nitq söyləyən Prezident İlham Əliyev xalqın böyük oğlunun həyat və fəaliyyətinin bütün dönəmlərini xarakterizə etmiş, müstəqilliyin ilk illərindəki məhrumiyyətlərimiz və bugünkü qüdrətli Azərbaycan dövlətinin uğurları barədə danışmışdır: "Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər. Biz bunu bilirik və bizim hərbi gücümüz gündən-günə artır. İki il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir və o torpaqlarda – bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır".

İlham Əliyev bir daha xatırlatmışdır ki, biz Heydər Əliyev siyasi kursu ilə getmişik, gedirik və daim bu yola davam edəcəyik: "Biz ulu öndərin yolu ilə gedərək güclü iqtisadiyyat qura bilmişik. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görübdür, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik. Bizim çox böyük iqtisadi resurslarımız var. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir".

Xatırladaq ki, cənab Prezidentin sadaladığı bu göstəricilər – güclü ordu, qüdrətli dövlət, möhkəm iqtisadiyyat, yoxsulluq və işsizliyin aradan qaldırılması kimi məqamlar ulu öndərin ən böyük arzuları idi. Biz xoşbəxtik ki, həmin arzuların hamısı günümüzün reallığına çevrilib.

"Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır" – deyən Prezident İlham Əliyev xatırladır ki, qazandığımız bütün uğurların, göstəricilərin, nailiyyətlərin təməli məhz 1993-cü il oktyabrın 3-də qoyulmuşdur.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***